AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TURİZM AGENTLİYİ

AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİ

# İŞÇİ TƏDRİS PROQRAMININ TƏRTİB OLUNMASINA DAİR AKADEMİK HEYƏT ÜÇÜN

# TƏLİMAT

# ATMU-KTŞ-T (İTPD)-01

BAKI - 2022

## MÜNDƏRİCAT


GİRİŞ ..... 3
İŞÇİ TƏDRİS PROQRAMININ YAZILMASI İLƏ ƏLAQƏDAR TƏLƏBLƏR ..... 3
İŞÇİ TƏDRİS PROQRAMININ QURULUŞU ..... 4
I. **Ümumi məlumat** ..... 4
II. **Fənnin məqsədi** ..... 5
III. **Fənnin qısa təsviri və təlim nəticəsi** ..... 6
3.1. Fənnin qısa təsviri ..... 6
3.2. Fənnin təlim nəticələrinin peşə kompetensiyaları ilə əlaqəsi ..... 6
IV. **Kursun tələbləri** ..... 8
4.1. Akademik dürüstlük ..... 8
4.2. Etik davranış qaydaları ..... 8
V. **Əsas və əlavə ədəbiyyat siyahısı** ..... 8
5.1. Əsas ədəbiyyat ..... 9
5.2. Əlavə ədəbiyyat ..... 9
VI. **Qiymətləndirmə siyasəti** ..... 9
6.1. Qiymətləndirmə bölgüsü ..... 9
6.2. Yazı işləri və təqdimatların tərtibi qaydaları və qiymətləndirilməsi ..... 10
VII. **Təqvim-tematik plan** ..... 11
FAYDALI MƏNBƏLƏR ..... 12
ƏLAVƏ 1. İŞÇİ TƏDRİS PROQRAMININ TİTUL VƏRƏQİ ..... 13
ƏLAVƏ 2. İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYATIN BİBLİOQRAFİK TƏSVİRİ VƏ NÜMUNƏLƏR ..... 14
ƏLAVƏ 3. ÖZÜNÜ YOXLAMA SİYAHISI ..... 18

"Təsdiq edirəm"
Azərbaycan Turizm və Menecment
Universitetinin rektoru
_____ İ.İ.Mədətov
13 _____ 2022-ci il

# İşçi tədris proqramının tərtib olunmasına dair akademik heyət üçün

# T ə l i m a t

## GİRİŞ

İşçi tədris proqramı (sillabus) - fənnin müvafiq proqramı əsasında hazırlanan və özündə tədris olunan fənnin təsvirini, onun hədəf və məqsədini, qısa məzmununu, dərslərin müddətini və növlərini, tələbənin müstəqil işi üçün tapşırıqları, onların yerinə yetirilməsi müddətini, məsləhət saatlarını, müəllim haqqında məlumatı, müəllimin tələblərini, qiymətləndirmə meyarlarını, qiymətləndirmə qaydalarını, istifadə olunan ədəbiyyatın siyahısını özündə əks etdirən sənəddir.

İşçi tədris proqramları fənni tədris edən müəllim tərəfindən hazırlanır, kafedra iclasında təqdim olunur, protokola salınır, kafedra müdiri və dekan tərəfindən təsdiq edilir. Fənn müəllimi tərəfindən işçi tədris proqramı fənnin tədrisi başlamazdan öncə tələbələrin e-mail ünvanına ilkin tanışlıq üçün göndərilir və müvafiq e-portalında yerləşdirilir, məzmunu ilk dərsdə tələbələrə ətraflı şəkildə izah olunur.

Təsdiq üçün kafedra iclasında müzakirə ediləcək sillabusa əmək bazarı nümayəndəsi tərəfindən rəy bildirilməsi və rəyin protokolda öz əksini tapması tövsiyə olunur.

*Qeyd: Bu təlimatın təkmilləşdirilməsi, eləcə də işçi tədris proqramının tərtibi ilə əlaqədar əlavə dəstək üçün müraciətlərinizi Keyfiyyət təminatı şöbəsinə (quality@atmu.edu.az) ünvanlaya bilərsiniz.*

## İŞÇİ TƏDRİS PROQRAMININ YAZILMASI İLƏ ƏLAQƏDAR TƏLƏBLƏR

Bütün tərkib hissələri və alt hissələri əhatə olunmaqla aşağıdakı şərtlərin nəzərə alınması zəruridir:

- Titul vərəqindən istifadə olunması (Əlavə 1)
- Şrift: *Arial, 12, qara*
- Sətirlərarası məsafə: *1.15*

- İşçi tədris proqramı fənni tədris edən müəllim tərəfindən imzalanmalı, proqramın təsdiqi ilə əlaqədar № saylı kafedra iclasının, № saylı protokolu əsasında müvafiq kafedra müdiri və dekan tərəfindən təsdiqlənməlidir.
- İşçi tədris proqramının dili Azərbaycan dilidir, zərurət yarandığı halda (məsələn, qrupda əcnəbi tələbə təhsil aldığı təqdirdə), tədris dilinə tərcümə oluna bilər.

## İŞÇİ TƏDRİS PROQRAMININ QURULUŞU

Azərbaycan Turizm və Menecment Universitetində işçi tədris proqramı yeddi tərkib hissədən ibarətdir:

I. Ümumi məlumat
II. Fənnin məqsədi
III. Fənnin qısa təsviri və təlim nəticəsi
IV. Kursun tələbləri
V. Əsas və əlavə ədəbiyyat siyahısı
VI. Qiymətləndirmə siyasəti
VII. Təqvim-tematik plan

Tərkib hissələrinin izahı və onların yazılması ilə əlaqədar texniki göstərişlər, eləcə də nümunələr aşağıda öz əksini tapmışdır.

### I. Ümumi məlumat

*İzahı:* Bu hissədə fənn, fənnin təhkim olunduğu fakültə və kafedra, fənnin tədris olunduğu qrup, təhsil pilləsi, tədris ili və semestri, fənn müəllimi haqqında qısa məlumat təqdim olunur.

*Texniki göstərişlər:*
Bu hissənin doldurulması ilə əlaqədar qeydlər aşağıdakı cədvəldə öz əksini tapır.

*Cədvəl 1: Ümumi məlumat*

| | |
|---|---|
| **Qrup:** bu hissədə ixtisasın qısa təsviri yazılır *(məs.TİTR2001)* | **Semestr:** ☐ **payız** ☐ **yaz** ☐ **yay**<br>fənnin aid olduğu semestri müvafiq ☐ xanada *"x"* işarəsi ilə qeyd edilir |
| **Fakültə:** fənnin aid olduğu fakültənin tam adı qeyd edilir (məs., Turizm və qonaqpərvərlik fakültəsi). Orfoqrafiq qaydalara uyğun olaraq, fakültənin adında yalnız birinci söz baş hərflə qeyd olunur. | **Kafedra:** fənnin aid olduğu kafedranın tam adı qeyd edilir. (məs.,Turizm biznesi). Orfoqrafiq qaydalara uyğun olaraq, kafedranın adında yalnız birinci söz baş hərflə qeyd olunur. |

| | |
|---|---|
| **İxtisas:** bu hissədə ixtisasın adı tam yazılır (*məs., Turizm işinin təşkili*) | **Təhsil pilləsi:** ☐ **bakalavriat** ☒ **magistratura** fənnin aid olduğu təhsil pilləsi yuxarıdakı müvafiq ☐ xanasında *"x"* işarəsi ilə qeyd edilir |
| **Fənnin tədris dili** fənnin tədris dili sağ tərəfdə ☐ xanasında *"x"* işarəsi ilə qeyd edilir | ☒ **Azərbaycan** ☐ **İngilis** ☐ **Rus** |
| **Tədris forması** fənnin tədris forması sağ tərəfdə ☐ xanasında *"x"* işarəsi ilə qeyd edilir | ☒ **Əyani** ☐ **Qiyabi** |
| **Fənn üzrə kredit sayı:** fənn üzrə kredit sayı təsdiqlənmiş müvafiq təhsil proqramında[1] qeyd olunmuş rəqəmə bərabər müəyyənləşdirilir (*məs.*, 6). | **Fənn üzrə saat sayı:** fənn üzrə kredit sayı müvafiq ixtisasın Tədris planında (Forma 1) qeyd olunmuş rəqəmə bərabər tutulur (*məs.*, 75). Forma 1 müvafiq kafedradan əldə oluna bilər. |
| **Prerekvizit fənn (əgər varsa):** hazırki fənnin keçirilməsi ilə bağlı prerekvizit (əgər tələb olunursa) fənlərin siyahısı müvafiq kafedradan əldə olunur və bu xanada qeyd olunur. Prerekvizit tələbi olmadığı halda, *"yoxdur"* yazılması zəruridir. | **Məsləhət saatları:** Fənni tədris edən müəllim tərəfindən hər həftə bir akademik saat miqdarında məsləhət saatı həyata keçirilir. *Məsələn: Bazar ertəsi (10:00-10:45)* |
| **Fənn müəlliminin elmi dərəcəsi, soyadı, adı, ata adı:** *s.e.ü.f.d. Kərimli Səadət İlqar qızı* (*Qeyd:* elmi dərəcəyə malik olmayan şəxslər, yalnız soyadı, adı və ata adını göstərilmiş qeyd olunmuş sıra ilə qeyd edir.) | **Müəllimin e-poçt ünvanı:** a.sadiqli@atmu.edu.az (*Qeyd:* ATMU tərəfindən təqdim olunmuş korporativ e-poçt ünvanı qeyd edilir. E-poçt ünvanına sahib olmayan akademik heyət üzvləri it@atmu.edu.az və ya 012-564-42-33 (dax.133) telefon nömrəsi vasitəsilə İnformasiya Texnologiyaları şöbəsi ilə əlaqə saxlamaqla korporativ e-poçtun açılması üçün müraciət edə bilərlər.) |

## II. Fənnin məqsədi

*İzahı:* Fənnin məqsədi – müəllimin öyrətmə niyyətlərinin ifadəsidir və müəllimin təlim prosesində nəyi əhatə etməyi planlaşdırdığını göstərir.

*Texniki göstərişlər:* Məqsəd fənnin ümumi məzmununu və istiqamətini göstərmək üçün müəllim tərəfindən yazılır. Fənnin məqsədi spesifik, ölçüləbilən, fənnin tədrisi müddətində əldə oluna bilən olmalıdır. Fənnin məqsədi yazılarkən müvafiq təhsil proqramı

[1] Ali təhsil proqramı təlim nəticələrini və məzmun standartlarını, tədris fənlərini, həftəlik dərs və dərsdənkənar məşğələ saatlarının miqdarını, pedaqoji prosesin təşkili, təlim nəticələrinin qiymətləndirilməsi və monitorinqinin aparılması sistemini özündə əks etdirən dövlət sənədidir (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 aprel tarixli, 75 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil pilləsinin dövlət standartı və proqramı"

üzrə müəyyən olunmuş kompetensiyanın formalaşdırılması nəzərə alınmalıdır. Hazırkı təlimata uyğun olaraq, məqsəd ən çox *100 sözlə* ifadə olunmalıdır.

**III. Fənnin qısa təsviri və təlim nəticəsi**

3.1. Fənnin qısa təsviri

*İzahı:* Fənnin qısa təsviri tədris olunan fənnin qısa məzmununu əks etdirir, əhatə olunan məsələlər dairəsi, onun tədrisi zamanı tələbələrin həll etməli olduqları tapşırıqlar, həmçinin, fənnin tədrisi, formalaşacaq bilik və bacarıqların qiymətləndirilməsi formaları barədə ümumi təsəvvür yaratmağa imkan verir.

Burada həmçinin, müvafiq təhsil proqramında öyrənilən fənnin əhəmiyyəti nümayiş olunur, onun tədrisi nəticəsində tələbələr tərəfindən əldə edilən bilik və bacarıqların dövlət standartında nəzərdə tutulmuş peşə kompetensiyalarının formalaşmasına verilən töhfə göstərilir. Bu hissədə artıq tədrisi tamamlanmış fənlər ilə hazırki fənn arasında mövcud olan davamlılıq və varislik əks olunur, eləcə də təlim və öyrənmə nəticəsində əldə edilən bilik və bacarıqların bu təhsil proqramında əhatə olunacaq digər fənlərin mənimsənilməsinə göstərdiyi töhfə öz əksini tapır.

*Texniki göstərişlər:* Hazırki təlimata uyğun olaraq, bu hissə ən çox *150 sözlə* ifadə olunmalıdır. Təhsil proqramında müvafiq məlumatı qeyd olunmuş fənnin təsviri yazılarkən həmin məzmuna istinad edilməsi vacibdir.

3.2. Fənnin təlim nəticələrinin peşə kompetensiyaları ilə əlaqəsi

*İzahı:* Fənnin təlim nəticələrinin (FTN) ixtisas üzrə peşə kompetensiyaları ilə əlaqəliliyi göstərir. Fənnin təlim nəticələri tələbələnin bir fənni mənimsəməsi nəticəsində qazandığı səriştələrdir (bilik və bacarıqlardır). Təlim nəticələri birmənalı olaraq iki suala cavab verir:

- *Fənni uğurla mənimsəyən tələbə hansı biliklərə nail olacaq?*
- *Uğurlu təhsilalma nəticəsində tələbə nə etməyə qadir olacaq?*

İxtisas üzrə peşə kompetensiyaları müvafiq Təhsil proqramında öz əksini tapır.

*Texniki göstərişlər:* Təlim nəticələri Blum taksonomiyasına uyğun olaraq Təhsil proqramı, Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiya Çərçivəsi[2] və Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlar[3] nəzərə alınmaqla hazırlanır.

Hər bir təlim nəticəsi hərəkət felindən sonra konteksti təsvir edən ifadə ilə başlayır. Hər bir təlim nəticəsi üçün yalnız bir feldən istifadə edilir, təlim nəticələrinin təsvirində təlim məqsədlərinə aid mücərrəd və qeyri-ardıcıl şəkildə şərh edilə bilən ifadələrdən (məsələn, *"bilmək", "başa düşmək", "tanış olmaq", "məlumat almaq", "anlamaq"*) və mürəkkəb

[2] http://e-qanun.az/framework/39622

[3] http://www.twinning4he.edu.az/uploads/component/document/esg.pdf

cümlələrdən istifadə (istisna hallarda aydınlıq üçün birdən çox cümlədən istifadə edilir) olunur. Hər bir fənn üzrə müəllim tərəfindən müəyyənləşdirilən təlim nəticələrinin sayı 5-9 arasında olmalı və qiymətləndirmə metodu vasitəsilə ölçülə bilən olmalıdır.

Fənn üzrə təlim nəticələri ixtisas üzrə Təhsil proqramını rəhbər tutaraq fənn müəllimi tərəfindən tərtib olunur. Fənn üzrə bir təlim nəticəsini birdən çox kompetensiya formalaşdıra bilər və ya bir neçə təlim nəticəsi yalnız bir kompetensiyasının formalaşmasına xidmət edə bilər.

*FTN-lərin nümunəsi:*

*"Beynəlxalq hüquq" fənni uğurla mənimsəyən tələbə:*

- *FTN 1: Əsas beynəlxalq hüquq prinsiplərinin məzmunu haqqında təsəvvürə malikdir;*
- *FTN 2: Beynəlxalq və milli hüququn institutları arasında qarşılıqlı əlaqə mexanizmlərini göstərir;*
- *FTN 3: Beynəlxalq hüququn inkişaf tarixinin əsas dövrlərini sadalayır;*
- *FTN 4: Beynəlxalq hüququn nəzəriyyəsi və təcrübəsinin aktual problemlərinə dair əsas elektron və çap məlumat mənbələri sadalaya bilir;*
- *FTN 5: Beynəlxalq hüquq institutlarının inkişafına təsir edən əsas iqtisadi və siyasi amillər haqqında təsəvvürə malikdir;*
- *FTN 6: Beynəlxalq təhlükəsizlik məsələlərinin müzakirəsində ifadə olunan müddəaların etibarlılığını qiymətləndirir;*
- *FTN 7: Tədqiqat işlərinin yazılması zamanı beynəlxalq hüququn müxtəlif problemləri üzrə mövcüd ədəbiyyatın icmalını verir.*

Fənn üzrə FTN-lər və peşə kompetensiyaları arasında əlaqə Cədvəl 2-də əks olunur. Təhsil proqramında fənn üzrə kompetensiyalar müəyyənləşdirilərək *"İxtisas üzrə peşə kompetensiyaları"* sütununda yerləşdirilir. Məllim tərəfindən müəyyənləşdirilmiş FTN-nin nömrəsi ilə uyğunluq müvafiq olaraq *"x"* işarəsi ilə cədvəldə qeyd edilir.

*Cədvəl 2: Fənnin təlim nəticələrinin ixtisas üzrə peşə kompetensiyaları ilə əlaqəliliyi matrisi*

| **İxtisas üzrə peşə kompetensiyaları** | **Fənnin təlim nəticələri** | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | **FTN 1** | **FTN 2** | **FTN 3** | **FTN 4** | **FTN 5** | **FTN 6** | **FTN 7** |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |

## IV. Kursun tələbləri

4.1. Akademik dürüstlük

*İzahı:* Akademik dürüstlük plagiat və saxtakarlıq, eləcə də digər qeyri-etik davranışlardan çəkinməklə akademik mühitdə dürüst və əxlaqi davranışlara sadiqliyin nümayiş olunmasıdır.

*Texniki göstərişlər: İşçi tədris proqramında aşağıdakı məlumatın əks olunması zəruridir.*

Akademik dürüstlük qaydalarına riayət olunması ATMU icmasının bütün üzvlərinin (o cümlədən, tələbələr, akademik heyət, tədqiqatçılar və s.) əsas vəzifələrindən biridir. Tələbələrə "Tələbənin məlumat kitabçası"nda qeyd olunmuş əsas plagiat növlərindən çəkinmələri tövsiyə olunur.

4.2. Etik davranış qaydaları

*Texniki göstərişlər: İşçi tədris proqramında aşağıdakı məlumat öz əksini tapmalıdır.*

Universitetdə tələbələrlə iş Azərbaycan Turizm və Menecment Universitetində təhsilalanların Etik Davranış Kodeksində[4] qeyd olunmuş etik-davranış normaları və prinsipləri, hüquq və vəzifələri, məsuliyyəti və məsuliyyətə cəlb olunma qaydalarını rəhbər tutaraq icra olunur, tələbələrin Kodekslə tanış olmaları və təhsil zamanı onu rəhbər tutmaları zəruridir.

## V. Əsas və əlavə ədəbiyyat siyahısı

*İzahı:* Bu hissədə müəllim təhsilalanların bu fənn üzrə mövzuları müstəqil şəkildə mənimsəyə biləcəyi ədəbiyyat siyahısını təqdim edir. Ədəbiyyat siyahısına daxil olunan dərs vəsaitlərinə aiddir: kitablar, jurnallar, elektron resurslar, o cümlədən audio və video materiallar və digər mənbələr. Siyasi, ideoloji, dini və digər təbliğat xarakterli qadağan olunmuş mənbələrin qeyd olunmaması və siyahıda yalnız 2000-ci ildən sonra nəşr olunmuş əsərlərin adlarının qeyd olunması labüddür.

*Texniki göstərişlər:* Ədəbiyyat siyahısı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 29 oktyabr 2019-cu il tarixli qərarı ilə təsdiq edilmiş, 7 may 2021-ci il tarixli qərarı ilə əlavə və dəyişikliklər edilmiş Dissertasiyanin tərtibi Qaydasının "İstifadə edilmiş ədəbiyyatın biblioqrafik təsviri və nümunələr" adlı əlavəyə (bu təlimatda Əlavə 2) əsasən təsvir edilir. Siyahı nömrələnmir və əlifba sırası ilə tərtib olunur.

Bu tərkib hissəyə aşağıdakı alt bölmələr daxildir:

[4] Etik Davranış Kodeksi: https://bit.ly/3zQFYPx

5.1. Əsas ədəbiyyat

*İzahı:* Tədris olunan fənn üzrə müəllim tərəfindən müəyyənləşdirilmiş təlim nəticələrini əhatə edən əsas vəsaitlərin siyahısı.

*Texniki göstərişlər:* Ədəbiyyat siyahısında qeyd olunmuş vəsaitlər universitet kitabxanasında çap və ya elektron formasında mövcud olmalı, olmadığı halda fənnin təhkim olunduğu kafedraya ATMU-nun Kitabxana-informasiya mərkəzini həmin vəsaitlərlə təmin olunması ilə əlaqədar müraciət edilməli və fənnin keçirildiyi semestrdən əvvəl vəsaitlərin mövcudluğu təmin olunmalıdır.

5.2. Əlavə ədəbiyyat

*İzahı:* Tədris olunan fənn üzrə müəllim tərəfindən müəyyənləşdirilmiş təlim nəticələrinə nail olmağa dəstək göstərən köməkçi vəsaitlərin siyahısı.

*Texniki göstərişlər:* Ədəbiyyat siyahısında qeyd olunmuş vəsaitlərin universitet kitabxanasının fondunda mövcud olması zəruri tələb deyil, lakin tələbələrə həmin mənbələrin əldə olunması ilə əlaqədar müəllim tərəfindən istiqamətin verilməsi arzuolunandır. Əlavə ədəbiyyat siyasını ən çox 15 mənbə ilə əhatə olunması tövsiyə olunur.

## VI. Qiymətləndirmə siyasəti

Tələbələrin fənlər üzrə biliyinin qiymətləndirilməsi çoxballı (100 ballı) sistemlə həyata keçirilir.

Qiymətləndirmə üsulu seçilərkən aşağıdakı prinsiplər nəzərə alınması zəruridir:

- qiymətləndirmədə müxtəlif uyğun metod və vasitələrdən istifadə olunması;
- qiymətləndirmə meyarların ölçüləbilən olması;
- şəffaflığın təmin olunmasına imkan yaradan və ədalətliliyin, obyektivliyin etibarlı metod və vasitələrdən istifadə olunması;
- qiymətin əsaslandırılması;
- təhsilalanların özünüqiymətləndirmə bacarığının formalaşması, onlarda öz təlimlərini yaxşılaşdırması istəyinin yaradılması və təlimin keyfiyyətinin yüksəldilməsinə nail olunması.

6.1. Qiymətləndirmə bölgüsü

Yekun qiymət seminarlarda verilən cavablara (20 bal), aralıq qiymətləndirməyə (30 bal) və imtahanda (50 bal) qiymətləndirməyə görə verilən balların cəmidir.

| Qiymətləndirmə | Açıqlama | Bal |
|---|---|---|

| forması | | |
|---|---|---|
| Seminar | Seminar balları (0-10 bal arası) toplanaraq bal sayına bölünür və ikiyə vurularaq yekün seminar balı əldə edilir. | **20** |
| Aralıq qiymətləndirmə | 8-ci tədris həftəsində (yazılı, şifahi-dinləmə, test) formasında təşkil olunur. | **30** |
| Davamiyyət | Fənn üzrə **25%** dərs buraxan tələbə yekun imtahana buraxılmır. Davamiyyət göstəricisinə görə tələbəyə bal verilmir. | **-** |
| Yekun imtahan | Semestrin sonunda (yazılı, şifahi-dinləmə, test) formasında təşkil olunur. | **50** |

6.2. Yazı işləri və təqdimatların tərtibi qaydaları və qiymətləndirilməsi

*İzahı:* Qiymətləndirmə hesabat və ya təqdimat formasında təşkil olunduğu halda tələblər və meyarlar bu hissədə açıqlanır.

*Texniki göstərişlər:* Bu hissədə müəllim aşağıdakı məlumatları əlavə etməklə yazı işinin növünü qeyd edir.

- Yazı işinin növü (kurs işi, hesabat, təqdimat və s.)
- Titul vərəqi (tələbələrə nümunəvi titul vərəqinin təqdim olunması vacibdir)
- Şrift və ölçüsü
- Sətirlərarası interval
- Ümumi işin həcmi (söz və ya səhifə)
- İstifadə olunan mənbələrə olan tələblər
- İşin son təqdim olunma tarixi

Yazı işinin növündən asılı olaraq müəllim tərəfindən digər tələblər də müəyyənləşdirilə bilər.

Müəllim tələbəyə hesabat və təqdimatların hazırlanmasını tapşırdığı halda müvafiq meyarları və hər meyar üzrə balı (rəqəm və ya faizlə) cədvəldə qeyd edir:

| Meyarlar/ Ballar | | | | |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |
| | | | | |

Qiymətləndirmənin təşkilinə dair ATMU-nun Təhsilin qiymətləndirilməsi şöbəsinin müvafiq təlimatların nəzərə alınması zəruridir.

## VII. Təqvim-tematik plan

*İzahı:* Tədris olunan mövzular üzrə istifadə olunan tədris metodlarının siyahısı, ədəbiyyat siyahısı verilir, tarixi, əhatə etdiyi saat sayı, məşğələlərin keçirilməsi forması, öyrənilən materialın mənimsənilməsinin cari yoxlanılması üsullarının göstərilməsi məqsədilə tərtib olunan cədvəl.

*Texniki göstərişlər:* Təqvim-tematik planı göstərilmiş cədvəl əsasında hazırlanır. İşçi tədris proqramı qiyabi bölmə üçün hazırlandıqda təqvim-tematik planında dərs yükün nəzərə alınması zəruridir.

*"Mövzu ilə bağlı ədəbiyyat"* hissəsində ədəbiyyatın bütöv adı bu təlimatın 5-ci bənddə göstərilmiş sıra nömrəsi ilə əvəzlənərək səhifəsi qeyd olunur (kvadrat mötərizədə göstərilməklə kodlaşdırılır). Misal: [5.1., 3, s.10-15]. Burada 5.1.- əsas ədəbiyyat siyahısına istinad olunduğunu, 3. - ədəbiyyatın əsas ədəbiyyatdakı sırasını, s.10-15 isə ədəbiyyatın mövzu ilə bağlı istifadə edildiyi səhifəsini göstərir. Tədris olunan mövzularla əlaqədar tədris dilində ədəbiyyat mövcud olmadığı halda "*Mövzu ilə bağlı ədəbiyyat*" hissəsində "Müəllimin mühazirə materialları" qeyd oluna bilər.

*Cədvəl 3: Təqvim-tematik plan*

| № | Dərs haqqında məlumat | Seminar (S)/ mühazirə (M)/ laboratoriya (L) | Tarix gg/aa/iiii, dərs saatın miqdarı |
|---|---|---|---|
| I. | ***Mövzunun adı və qısa məzmunu:***<br>***Mövzu ilə bağlı ədəbiyyat:***<br>***İstifadə olunan tədris və öyrənmə metodları:*** | ☐ S ☐ M ☐ L | |
| II. | ***Mövzunun adı və qısa məzmunu:***<br>***Mövzu ilə bağlı ədəbiyyat:***<br>***İstifadə olunan tədris və öyrənmə metodları:*** | ☐ S ☐ M ☐ L | |
| | ***Mövzunun adı və qısa məzmunu:***<br>***Mövzu ilə bağlı ədəbiyyat:***<br>***İstifadə olunan tədris və öyrənmə metodları:*** | ☐ S ☐ M ☐ L | |
| | ***Mövzunun adı və qısa məzmunu:***<br>***Mövzu ilə bağlı ədəbiyyat:***<br>***İstifadə olunan tədris və öyrənmə metodları:*** | ☐ S ☐ M ☐ L | |

## FAYDALI MƏNBƏLƏR

Bu təlimata əlavə olaraq işçi tədris proqramını hazırlayarkən müəllimlərə aşağıda qeyd olunmuş mənbələrə müraciət etmələri tövsiyə olunur:

- Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiya Çərçivəsi: http://e-qanun.az/framework/39622
- Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlar: http://www.twinning4he.edu.az/uploads/component/document/esg.pdf
- Blum taksonomiyası
- Fənnin aid olduğu Təhsil proqramı

**Hazırki Qaydalar** 13 sentyabr **20**22 **ci il tarixli Elmi Şura iclasında** 01 **№-li protokolla təsdiq olunmuşdur.**

## ƏLAVƏ 1. İŞÇİ TƏDRİS PROQRAMININ TİTUL VƏRƏQİ

"Təsdiq edirəm"

[*Burada fakültənin adı qeyd edilir*] fakültəsinin dekanı

_____ [*elmi dərəcə və elmi adı,*
*imza* *ata adı və soyadının ilk hərfləri*]

_____ _____ 20__ ci il
*gün* *ay* *il*

**ATMU-*fakültənin abreviaturu*-İTP(*fənn adının abbreviaturu*)-01**

# Azərbaycan Turizm və Menecment Universiteti
# [*Burada kafedranın adı qeyd edilir*] kafedrası

## [*Burada fənnin şifri və adı qeyd edilir*] fənni üzrə

# İşçi tədris proqramı

**[ ____/____il ] tədris ili**

**BAKI – [ *il* ]**

## ƏLAVƏ 2. İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYATIN BİBLİOQRAFİK TƏSVİRİ VƏ NÜMUNƏLƏR

| № | Nəşrin növü | Biblioqrafik təsvirin forması | Nümunələr |
|---|---|---|---|
| 1. | Çoxcildli nəşrlər | Müəllif (soyadı, inisialları). Əsərin adı: [cildlərin sayı] / Müəllifin inisialları, soyadı. – şəhər: nəşriyyat, – cildin nömrəsi. – nəşr ili. – həcmi.<br><br>Əsərin adı / Red. hey. və b. – şəhər: nəşriyyat, – cildin nömrəsi. – nəşr ili. – həcmi. | Azərbaycan Milli Ensiklopediyası / Red. hey. sədri İ.H.Əliyev. - Bakı: Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi, – c. 8: Enollar – Fedin. – 2018. – 598 s.<br><br>Чехов, А.П. Полное собрание сочинений и писем: [в 30 томах] / А.П.Чé хов. – Москва: Наука, – т. 18. – 1978. – 528 с. |
| 2. | Müəllifi göstərilməyən nəşrlər | Əsərin adı / redaktor, tərtib edəni (inisiallar, soyadı). – şəhər: nəşriyyat,<br>– nəşr ili. – həcmi. | Azərbaycan folkloru: (məktəblilər üçün seçmələr) / tərt. ed. B.Abdulla – Bakı: Şərq-Qərb, – 2005. – 360 s. |
| 3. | Müəllifi dörd nəfərədək olan nəşrlər | Bir müəllifli nəşrlər<br><br>Müəllif (soyadı, inisialları) Əsərin adı / Müəllif (inisiallar, soyadı). – şəhər: nəşriyyat, – nəşr ili. – həcmi.<br><br>İki və üç müəllifli nəşrlər<br><br>Birinci müəllif (soyadı, inisialları) Əsərin adı / Müəlliflər (inisialları, soyadları); – şəhər (iki şəhər olduqda hər ikisi qeyd olunmalıdır): nəşriyyat, | Mehdiyev, R. Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında / R.Mehdiyev. – Bakı: Şərq-Qərb, – 2019. – 232 s.<br><br>Paşayev, A.M. Atmosfer proseslərinin fiziki əsasları. Dərslik. / A.M.Paşayev, H.İ.Quliyev, S.H.Səfərov – Bakı: Nafta-Press, – 2007. – 416 s. |

| | | | |
|---|---|---|---|
| | | – nəşr ili. – həcmi. | |
| 4. | Müəllifi dörd və daha çox olan nəşrlər | Dörd və beş müəllifli nəşrlər<br><br>Əsərin adı / üç müəllifin inisialları, soyadları [və b.]. – şəhər: nəşriyyat, nəşriyyat yoxdursa [n.y.], – nəşr ili. – həcmi.<br><br>Beşdən çox müəllifli nəşrlər<br><br>Əsərin adı / Birinci müəllifin (inisialları, soyadı) [və b.]. – şəhər: nəşriyyat, – nəşr ili. – həcmi. | Elektron qurğularının əsasları: ali məktəblərin texniki ixtisaslarının tələbələri üçün dərslik / A.M.Paşayev, A.R.Həsənov, İ.Ə.İsgəndərov [və b.] – Bakı: Milli Aviasiya Akademiyası, – 2014. – 312 s. |
| 5. | Jurnal məqalələri | Müəllif (soyadı, inisialları) Əsərin adı // – şəhər: jurnalın adı, – nəşr ili. Cildin nömrəsi, jurnalın nömrəsi, – s.<br><br>Müəllifi üçdən çox olan jurnal məqalələri<br>Birinci müəllifin soyadı, inisialları.<br>Əsərin adı / Üç müəllifin inisialları və soyadları [və b.] // Jurnalın adı, – şəhər: – nəşr ili. Cildin nömrəsi, | Həbibbəyli, İ.Ə. Maarifçilik və realizm // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, Humanitar elmlər seriyası, – 2018. №1, – s. 3-10.<br><br>Rüstəmov,Q.Ə. Vibrasiyalı kəsmə prosesində müqavimət momenti dəyişməsinin tədqiqi / Q.Ə.Rüstəmov, İ.A.Yolçuyev, Ə.T.Həzərxanov [və b.] // Milli Aviasiya Akademiyasının Elmi Əsərləri, – Bakı: – 2005. №1, – s. 80-86. |

| | | | |
|---|---|---|---|
| | | jurnalın nömrəsi, – s. | |
| 6. | Konfrans materialları | Müəllif (soyadı, inisialları) Məruzənin adı // konfransın adı, – şəhər: nəşriyyatın adı, – tarixi, – nəşr ili, – s. | Gatys, L.A., Ecker, A.S., Bethge, M. Image style transfer using convolutional neural networks // IEEE Conference on Computer Vision and Pattern Recognition. Las Vegas, Nevada, USA, – 2016, – p. 2414-2423. |
| 7. | Dissertasiyalar | Müəllif (soyadı, inisialları). Dissertasiyanın adı: / iddia olunan elm sahəsi göstərilməklə elmi dərəcə, dis./ – şəhər, il. – həcmi | Səfərov, E.S. Xəzər dənizinin səviyyə tərəddüdlərinin məsafədən zondlama üsulları ilə tədqiqi: / coğrafiya üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2018. – 151 s. |
| 8. | Dissertasiyanın avtoreferatı | Müəllif (soyadı, inisialları). Dissertasiyanın adı: iddia olunan elm sahəsi göstərilməklə elmi dərəcə, dis.avtoreferatı./ – şəhər, il. – həcmi | Səfərov, E.S. Xəzər dənizinin səviyyə tərəddüdlərinin məsafədən zondlama üsulları ilə tədqiqi: / coğrafiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / – Bakı, 2018. – 26 s. |
| 9. | Elektron resurslar | Müəllif (soyadı, inisialları), əsərin və ya sənədin adı: [Elekrton resurs] / mənbə. – şəhər, nəşr ili. – elektron daşıyıcı (CD. DVD, audio-kasset, audio-kitab, videofilm) və ya internet ünvanı | Azərbaycan etnik musiqisi: [Elektron resurs] / tərt. ed. T.Məmmədov və b.; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. – Bakı, 2006. – DVD+; 13 sm.<br><br>Gleason, E. A. Viewpoint: Soft Metal Gains Hulk-Like Strength: [Electronic resource] / Physics 12, 125. – November 11, 2019. URL: https://physics.aps.org/articles/v12/125 |
| 10. | Təsviri materiallar | Müəllif (soyadı, inisialları) və ya əsərin adı [əsərin növü] / Müəllif (inisialları, soyadı); mənbə. – şəhər: nəşriyyat, – nəşr ili. – həcmi. | Azərbaycan - Ana Vətən [İzomaterial] / Kamil Nəcəfzadənin əsərlərinin sərgisi; Azərbaycan Rəssamlar İttifaqı. – Bakı: Azərbaycan, – 1992. – 15 s. |
| 11. | Kartoqrafik nəşrlər:<br>Xəritələr<br>Atlaslar | Müəllif (soyadı, inisialları) əgər varsa, əsərin adı [nəşrin növü] /miqyas /<br>– şəhər: nəşriyyat, – nəşr ili. – həcmi. | Azərbaycan Respublikasının Milli Atlası [Xəritə] / – Bakı: Bakı Kartoqrafiya fabriki, – 2014. – 444 s. |

| | | | |
|---|---|---|---|
| 12. | Notlar | Müəllif (soyadı, inisialları) əgər varsa, əsərin adı [Notlar]: / Klavir, partitura və s. – şəhər: nəşriyyat, – nəşr ili. – həcmi. | Hacıbəyli, Ü. Leyli və Məcnun operası [Notlar]: / Klavir. – Bakı: İşıq, – 1984. – 240 s. |
| 13. | Patentlər | Müəllif (soyadı, inisialları), Patentin adı, növü və nömrəsi, ölkə / Müəllif (soyadı, inisialları) [və b.]: nəşriyyat, – nəşr ili, – nömrəsi | Səfərov, A.R., 1,4 – Butandiolun alınma üsulu, İxtira i2017 0005, Azərbaycan Respublikası / Əliyev A.M., Əliyev F.V., Mətiyev K.İ. [və b.]. |
| 14. | Normativ-hüquqi sənədlər | Rəsmi sənədin adı // qəbul edilməsi və dəyişikliklər haqqında məlumat. – şəhər: nəşriyyat, – nəşr ili. – həcmi. | Azərbaycan Respublikasının Konstitusiyası // 12 noyabr 1995-ci ildə qəbul edilmişdir (24 avqust 2002-ci il tarixdə olan dəyişiklik və əlavələr). – Bakı: Qanun, – 2002, – 48 s. |
| 15. | Qəzet məqalələri | Müəllif (soyadı, inisialları). Məqalənin adı // nəşrin adı. – nəşr ili, tarixi. – s. | Abdullayev, F. Azərbaycanı Respublikası Konstitusiyasının qəbul edilməsindən 24 il keçir // Respublika. – 2019, 9 noyabr. – s. 2. |
| 16. | Arxiv materialları | Sənədin adı // arxivin adı, fondun, siyahının, işin nömrələri, vərəqlərin sayı. | Xarici İşlər naziri Məhəmməd Həsən Hacınskinin məruzəsi (Gəncə: 15 iyul 1918-ci il) // Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 1061, siyahı №1, iş № 95, vərəq – 1. |

## ƏLAVƏ 3. ÖZÜNÜ YOXLAMA SİYAHISI

| № | Meyar | Uyğundur | Təkmilləşdirilməlidir |
|---|---|---|---|
| 1. | Sənədin yazılması ilə bağlı texniki göstərişlər nəzərə alınıb | | |
| 2. | Sənəd hazırlanarkən bütün tərkib hissələri nəzərə alınıb | | |
| 3. | Təlim nəticələri müşahidə edilən və ölçülə bilən dir | | |
| 4. | Mövcud vaxt və resurslar daxilində təlim nəticələrinə nail olması mümkündür | | |
| 5. | Bütün təlim nəticələri proqramın (fənin) məqsəd və məzmununa uyğun gəlir | | |
| 6. | Təlim nəticələri, təlim, öyrənmə və qiymətləndirmə metodları arasında əlaqə mövcuddur | | |
| 7. | Bütün təlim nəticələri aktiv fellə başlayır | | |
| 8. | Təlim nəticələri Blum taksonomiyası nəzərə alınmaqla müxtəlif çətinlik səviyyələrini əhatə edir | | |
| 9. | İşçi tədris proqramı hazırlanarkən fənnin aid olduğu təhsil proqramında qeyd olunmuş minimal tələblər nəzərə alınıb | | |
| 10. | Yazı işlərinin tərtib olunmasına dair qaydalar fənnin tədrisi zamanı tələb olunan bütün növ yazı işlərini əhatə edir və aydın izah olunur | | |
| 11. | Akademik dürüstlük qaydaları hazırki təlimatda qeyd olunmuş mətni əks etdirir | | |
| 12. | Etik davranış qaydaları hazırki təlimatda qeyd olunmuş mətni əks etdirir | | |
| 13. | Ədəbiyyat siyahısı "İstifadə edilmiş ədəbiyyatın biblioqrafik təsviri və nümunələr" əsasında qurulur | | |
| 14. | Ədəbiyyat siyahısında qeyd olunmuş mənbələr siyasi, ideoloji, dini və digər təbliğat xarakteri daşımır | | |
| 15. | Ədəbiyyat siyahısında qeyd olumuş materiallar 2000-ci ildən sonra nəşr olunmuş/hazırlanmış mənbələrdən ibarətdir | | |
| 16. | Əsas ədəbiyyat siyahısında qeyd olunmuş mənbələr Kitabxana-informasiya mərkəzində çap və ya elektron formada mövcuddur | | |